

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 noyabr 2025-ci il, cümə
№ 217 (7044)
Qiymәti 60 qәpik


# Azərbaycan idman ölkəsidir

## Davamlı dövlət qayğısının növbəti təzahürü



Bax səh. 2

# Dünya sənaye liderlərinin Bakı platforması

Bax səh. 4






Bax səh. 3

# YAP nümayəndə heyətinin Kuba Respublikasına səfəri başa çatıb

## "Avrasiya Nəqliyyat Marşrutu"

Bax səh. 5

## 44 gün Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdı

Bax səh. 5

## Türkiyənin regional güc mərkəzi statusu təsdiqlənir...

Bax səh. 6

## Ağ Ev yaxınlığında terror...

### Tramp Əfqanıstan siyasətini daha da sərtləşdirə bilər




Bax səh. 7

## "Tehran 43"-də qurulan və qırılan nizam: XXI əsrin sülh paradoksu



Bax səh. 6

# Prezident İlham Əliyev “AZWOOL” mineral daş yunu zavodunun açılışında













Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda “Matanat-A” şirkətinin “AZWOOL” mineral daş yunu zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və “Matanat-A” şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov dövlətimizin başçısına zavodun fəaliyyəti barədə məlumat verdilər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan “Matanat-A” şirkəti barədə məlumat verildi. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə “Matanat-A” Quru İnşaat Qarışıqları, AĞDAĞ gipskarton və gipsəsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, Avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan “AZWOOL” mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb.

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev “Matanat-A” şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Azərbaycan idman ölkəsidir

## Davamlı dövlət qayğısının növbəti təzahürü

Bu günlərdə Prezident İlham Əliyev Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, bir qrup idmançı “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”, “Tərəqqi” medalı ilə təltif olunub. Eyni zamanda, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Abdullayev Arif Yədulla oğluna, Əbilov Eldar Zöhrab oğluna, Məmmədov Fərhad Nizami oğluna “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adı verilib. Beybutov Rafiq Qəmbər oğlu, Əliyev Tofiq Zöhrab oğlu, Əzizli Eldəniz Yamən oğlu, Həşimov Qasım Murtuza oğlu isə Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüblər.



### 1997-ci ildən başlayan tarix...

Hazırda Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasını şərtləndirən əsas amil bu sahədə həyata keçirilən dövlət siyasəti ilə bağlıdır. Ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq idmanın inkişafına davamlı şəkildə diqqət göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirlib. Müvafiq Sərəncamla ölkə idmanının inkişafında xüsusi xidmətləri olan bir qrup idmançının və idman mütəxəssisinin təltif edilməsi və yüksək fəxri adlara layiq görülməsi də respublikamızda idmana göstərilən davamlı dövlət qayğısının növbəti təzahürüdür.

Ölkəmizdə Prezident İlham Əliyev ilk dəfə 1997-ci il 31 iyul tarixində Milli Olimpiya Komitəsinin (MOK) prezidenti seçilməsi ilə idmanın inkişafında keyfiyyətcə yeni mərhələ başlayıb. Həmin tarixədək İlham Əliyevin müxtəlif sahələrdə qazandığı uğurlar idman ictimaiyyətində belə bir yüksək inam formalaşdırmışdı ki, məhz O, Azərbaycan idmanını yeni uğurlara daşımağa qadirdir. Öz növbəsində İlham Əliyev Ona bəslənən ümidləri yüksək səviyyədə doğruldub. MOK-un yeni rəhbərinin milli təəssübkeşliyi, perspektivli idmançılara böyük qayğı ilə yanaşması, klubların, federasiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir idman infrastrukturunun qurulması, Bakının qəsəbələrində və regionlarda İdman-Olimpiya Komplekslərinin inşası bütövlükdə ölkənin idman həyatında yüksəliş dalğası yaradıb. MOK-un 2025-ci il fevralın 18-də keçirilən IX Hesabat-seçki baş məclisində Azərbaycan Prezidenti İlham Əliyev yenidən növbəti 4 il müddətinə Milli Olimpiya Komitəsinin prezidenti seçilib. Prezident İlham Əliyevin yenidən MOK-un prezidenti seçilməsi təsadüfi deyil. Bu seçimin arxasında Onun qurumun rəhbəri kimi çalışdığı illərdə ölkənin idman ictimaiyyətinin etimadını yüksək səviyyədə doğrultması amili dayanır. Azərbaycanda idman və çoxminli idmançılar ordusu MOK-un prezidenti İlham Əliyevin simasında öz böyük hamilərini tapıblar. MOK-un yeni rəhbərliyinin təşəbbüsü ilə respublikamızda idman təsərrüfatının yenilənməsi, o cümlədən də bu sahədə müasir infrastrukturun yaradılması diqqət mərkəzində saxlanılır. Hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Təkcə belə bir faktı qeyd edək ki, son 22 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda 50-dək müasir Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib.

Ölkəmizin uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın böyük əməyi sayəsində həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib. Birinci Avropa Oyunlarına hazırlıq məqsədilə 5 müasir idman qurğusu-Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və möhtəşəm Olimpiya Stadionu inşa edilib. Bundan başqa, yüksək dünya standartları səviyyəsində yaradılan atletlər kəndi barədə də ən xoş söz söyləməlk mümkündür. Paytaxtda və regionlarda yeniyetmələr, gənclər yaradılan idman obyektlərində məşqlər edir və böyük idmana doğru irəliləyirlər.

Öz növbəsində davamlı dövlət qayğısından bəhrələnən idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edirlər. İlk növbədə onu qeyd edək ki, son illərdə beynəlxalq miqyaslı yarışlara, olimpiadalara qatılan idmançılarımızın sayı əhəmiyyətli dərəcədə artıb. Onlar dünya səviyyəli çempionatlarda parlaq qələbələr qazanmaqla mötəbər arenalarda bayrağımızın ucaldılmasına, himnimizin səsləndirlməsinə nail olurlar.

Azərbaycan idmançılarının Olimpiya Oyunlarında öz nəticələrini getdikcə daha da yaxşılaşdırmalarını xüsusi qeyd edə bilərik. Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Ötən il Fransada baş tutan 33-cü Yay Olimpiya Oyunlarında - “Paris - 2024” - də də Azərbaycan idmançılarının çıxışları uğurlu olub. Prezident İlham Əliyev Olimpiadada Azərbaycanın dünyanın ən güclü 30 ölkəsi arasında yer almasını “çox yaxşı nəticə” kimi dəyərləndirib. Bütövlükdə, idmançılarımız Parisdə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar. Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Dominqes (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar. Bununla da Azərbaycan medal əyarına görə Tokio Olimpiadasındakı nəticəsini yaxşılaşdırıblar. Xatırladaq ki, idmançılarımız 2021-ci ildə Yaponiya paytaxtında keçirilmiş yarışda 3 gümüş və 4 bürünc mükafata sahib çıxmış, medal sıralamasında 67-ci olmuşdular.

Həmçinin Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında tarixi nəticəyə imza atıb. Belə ki, final mərhələsində Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət kollektiv 3 lent və 2 topla hərəkətlərdə 31.600 xal toplayıb. Daha əvvəl 5 halqa proqramında hakimlərdən 34.850 xal alan yığma iki hərəkətin cəmində 66.450 xalla 5-ci pilləni tutub. Qeyd edək ki, Azərbaycan “Paris-2024” Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunub. İdmançılarımızın 33-cü Yay Olimpiya Oyunlarında qazandıqları yüksək nəticələrdən məmnunluğunu bildirən Prezident İlham Əliyev deyib ki, bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. “Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

### Azərbaycan idmançılarının möhtəşəm uğurları

Azərbaycan idmançıları cari ilin sentyabr-oktyabr aylarında ölkəmizin ev sahibliyi ilə keçirilən III MDB Oyunlarında da yüksək nəticələr qazanıblar. Yarışlar “2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı” olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində keçirilib O cümlədən Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil olunub. Azərbaycan Oyunları ümumilikdə 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub. İlk sırada Rusiya qərarlaşıb. Beləliklə, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), ikincidə isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal əldə etmişdi.

Beynəlxalq idman ictimaiyyətinin Azərbaycana olan inamının artması ölkəmizdə idmanın inkişafının daha bir göstəricisi kimi dəyərləndirilə bilər. Son illərdə respublikamız müxtəlif beynəlxalq turnirlərə, o cümlədən I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, yuxarıda xatırlatdığımız III MDB Oyunlarına böyük uğurla ev sahibliyi edib. Bakıda 2016-cı ildən təşkil olunan “ Formula -1” yarışları da dünyada böyük maraqla izlənilir. Daha bir mühüm məqam ondan ibarətdir ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın “İdman paytaxtı” seçib. 2025-ci ilin sonunda Belçikanın paytaxtı Brüsseldə, Avropa Parlamentində Bakı şəhərinin dünyanın “İdman Paytaxtı” olaraq rəsmi təqdimat mərasiminin keçirilməsi planlaşdırılır.

***Mübariz ABDULLAYEV***

# YAP nümayəndə heyətinin Kuba Respublikasına səfəri başa çatıb












Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Kuba Respublikasına səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici ticarət və xarici investisiyalar naziri Oskar Perez-Oliva Fraqa ilə görüşü keçirilib.

Görüş zamanı Ümummilli Lider Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında tarixi əhəmiyyətə malik müstəsna rolu qeyd olunub. Bu gün dövlət başçılarının məqsədyönlü siyasəti sayəsində ikitərəfli münasibətlərin inkişafının diqqət mərkəzində olduğu vurğulanıb.

İqtisadi-ticari, turizm, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün önəmli potensialın olduğu bildirilərək qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Kuba Kommunist Partiyası (KKP) Siyasi Bürosunun üzvü, Kuba Qadınlar Federasiyasının Baş katibi Teresa Amareye Bouye və KKP Mərkəzi Komitəsinin üzvü, Gənc Kommunistlər İttifaqının Baş katibi Meyvis Estevez Eçeveria ilə də görüşləri olub.

Görüşlərdə Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Kubaya səfərinin qarşılıqlı faydalı olacağına və hərtərəfli əməkdaşlığa stimul verərək Azərbaycan-Kuba münasibətlərinə dinamizm gətirəcəyinə əminlik ifadə olunub. Bildirilib ki, YAP ilə KKP arasında Əməkdaşlıq Sazişinin imzalanması dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarının möhkəmləndirilməsi və işbirliyinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından çox önəmlidir.

Görüşlər zamanı, həmçinin hər iki ölkədə həyata keçirilən gənclər siyasətindən, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs olunaraq bu sahədə təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. Əməkdaşlıq Sazişinin icrasının hər iki partiyanın gəncləri arasında əlaqələri gücləndirəcəyinə inam ifadə olunaraq daimi təmaslar fonunda ortaq layihələrin təşkilinin önəmi qeyd edilib.

Nümayəndə heyətinin FIHAV (“Expocuba”) sərgisinə ziyarəti də təşkil olunub.

Səfər noyabrın 27-də başa çatıb.






# Azərbaycan-İtaliya əlaqələri...

## Ceyhun Bayramovun bu ölkəyə səfəri zamanı münasibətlərin inkişafı diqqət mərkəzində olub

Azərbaycan dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu mənada, Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Təsadüfi deyil ki, hazırda ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük önəm verilir.

Azərbaycanın xarici siyasət kursunda İtaliya Respublikası ilə qarşılıqlı faydalı münasibətlər də mühüm yer tutur. İki ölkəni möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Tərəflərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. Hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir. Bu baxımdan, xarici işlər naziri Ceyhun Bayramovun bu ölkəyə rəsmi səfəri zamanı aparılan müzakirələr diqqəti cəlb edir.

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində İtaliya Parlamentinin Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə görüşüb. Görüş zamanı Azərbaycanla İtaliya arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub. Tərəflər mövcud çoxölçülü strateji tərəfdaşlıq münasibətlərinin inkişafında yüksəksəviyyəli təmaslar, səfərlər və dialoqla yanaşı, parlament diplomatiyasının əhəmiyyətli rolunu qeyd ediblər. Strateji tərəfdaşlığın əsas dayaqlarından biri kimi parlament diplomatiyasının, parlament sədrlərinin və nümayəndələrinin qarşılıqlı səfərlərinin vacibliyi qeyd olunub.

Azərbaycan ilə İtaliya arasında



siyasi, iqtisadi, enerji, ticarət, nəqliyyat, kommunikasiya və humanitar sahələrdə uğurla davam etdirilən əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib. Enerji sahəsində uzunmüddətli əməkdaşlıq, xüsusilə də Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol xüsusi qeyd olunub. Bununla yanaşı, ikitərəfli münasibətlərdə böyük əhəmiyyətə malik Azərbaycan-İtaliya Universitetinin təsis edilməsinin strateji tərəfdaşlığa əlavə təkan verdiyi vurğulanıb.

Görüşdə nazir keçmiş Ermənistan-Azərbaycan münaqişəsi, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, tarixi Vaşinqton görüşünün nəticələri, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

C.Bayramov, həmçinin İtaliya Senatının sədri İqnasio La Russa ilə görüşüb. Görüşdə tərəflər Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərin dinamik şəkildə inkişaf etdiyini məmnunluqla qeyd ediblər.

Son illər ərzində qarşılıqlı etimada, ümumi maraqlara və fəal siyasi dialoqa əsaslanan ikitərəfli əlaqələrin daha da dərinləşdiyi diqqətə çatdırılıb. Söhbət zamanı Azərbaycan-İtaliya əməkdaşlığının siyasi, müdafiə və təhlükəsizlik, iqtisadi və ticarət, enerji və bərpaolunan enerji, humanitar, turizm, mədəniyyət və təhsil sahələri də daxil olmaqla çoxşaxəli istiqamətlərdə inkişafından məmnunluq ifadə olunub.

Görüşdə, İtaliya Prezidentinin Azərbaycan-İtaliya Universitetinin açılış mərasimində iştirakı, İtaliyanın Baş nazirinin ölkəmizdə COP29 liderlər sammitinə qatılması, iki ölkə liderləri arasında yüksəksəviyyəli təmasların münasibətlərə əlavə təkan verdiyi vurğulanıb.

Tərəflər parlamentlərarası əlaqələrin gücləndirilməsinin və davamlı siyasi dialoqun münasibətlərin gələcək inkişafı üçün həlledici əhəmiyyət daşıdığını bildiriblər. Bu kontekstdə parlament diplomatiyasının iki ölkə arasında əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi, həmçinin regional və beynəlxalq parlament platformalarında qarşılıqlı dəstəyin artırılması baxımından əhəmiyyəti xüsusi qeyd olunub.



Nazir eyni zamanda, qarşı tərəfə keçmiş Ermənistan-Azərbaycan münaqişəsindən irəli gələn postmünaqişə reallıqları, bölgədə sülh və sabitliyin təmin olunması istiqamətində atılan addımlar, o cümlədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa, yenidənqurma və reinteqrasiya prosesləri və İtaliya şirkətlərinin bu prosesdə iştirakı barədə ətraflı məlumat verib.

Tərəflər, həmçinin regional təhlükəsizlik mühiti, çoxtərəfli əməkdaşlıq formatları, beynəlxalq gündəlikdə duran məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular üzrə fikir mübadiləsi aparıblar.

Ümumiyyətlə, Azərbaycan və İtaliya arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın əsas siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya Avropada Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Azərbaycan da İtaliyanın Cənubi Qafqaz ölkələri arasında ən iri ticarət tərəfdaşıdır ki, bu bölgədə İtaliyanın apardığı ticarətin böyük hissəsi Azərbaycanın payına düşür.

Ötən dövr ərzində iki ölkə arasında mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq da yüksələn xətlə inkişaf edib. Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələr və təşkil olunan tədbirlər mədəniyyət sahəsində əlaqələrin və xalqlararası təmasların inkişafına böyük töhfə verib. Roma şəhərində mədəniyyət abidələrinin bərpası işlərinə Azərbaycan tərəfindən göstərilən dəstək də İtaliyada ölkəmizin nüfuzunun daha da artmasına təsir göstərib.

Ən vacib məqamlardan biri də odur ki, Ermənistanın 30 illik işğalı dövründə İtaliya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Prezident İlham Əliyevin 2020-ci ili ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də də Azərbaycan və İtaliya bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyib. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həlli ilə əlaqədar birmənalı mövqe əks olunub. 44 günlük Vətən müharibəsi zamanı da İtaliya Azərbaycanın haqlı mövqeyinə dəstək nümayiş etdirdi. Azərbaycan həmin günlər ərzində kimin haqqın, ədalətin, kimin isə ədalətsizliyin yanında olduğunu görmüş oldu. Bunun da nəticəsidir ki, işğaldan azad edilən bölgələrin bərpası işində dost ölkələrin şirkətləri iştirak edir. İtaliya şirkətləri də bu sıradadır. Belə ki, artıq bu ölkənin bir sıra şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərində yaxından iştirak edir. Buna ilk nümunələrdən biri olaraq 2020-ci ilin dekabr ayında imzalanmış sənədi göstərmək olar. Belə ki, "Azərenerji" ASC-nin və İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Müqaviləyə əsasən Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan 4 ədəd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatı məhz "Ansaldo Energia" şirkətinin üzərinə düşüb.

Bütün bunlar göstərir ki, Azərbaycan-İtaliya münasibətləri bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir. Strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr davamlı olaraq güclənir.

*Nardar BAYRAMLI*

# Dünya sənaye liderlərinin Bakı platforması

## "SPE Xəzər Texniki Konfransı" Azərbaycanın Avropa üçün strateji enerji təminatçısı olduğunu bir daha təsdiqlədi

SPE International
Society of Petroleum Engineers

**Bakıda keçirilən "SPE Xəzər Texniki Konfransı"nda enerji sənayesinin müasir çağırışlar fonunda yeni imkan və potensialları nəzərdən keçirilib, təmiz enerjiyə keçid, rəqəmsallaşma, sənayedə süni intellekt texnologiyalarının tətbiqi, yataqların səmərəliliyinin artırılması məsələləri müzakirə olunub. Xəzər hövzəsinə aid ekspertləri, dövlət qurumlarının nümayəndələrini və texnoloji novatorları bir araya gətirən tədbir çərçivəsində təşkil olunan sərgidə isə müasir energetikanın dinamika və tablosunu əks etdirən potensiallar nümayiş etdirilib. Qeyd edək ki, SPE 146 ölkədən 132 min neftçi və mühəndislər cəmiyyətini birləşdirən platformadır. SPE peşəkar standartları inkişaf etdirir, təhsil proqramları yaradır, sahəvi icmaları dəstəkləyir və bilik mübadiləsi üçün platforma rolunu oynayır. Bu təsisatın ofisləri Kalqari, Dallas, Dubay, Hyuston və Kuala-Lumpurda fəaliyyət göstərir.**

## Asan neft dövrü başa çatıb

Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Babək Hüseynov vurğulayıb ki, Xəzərdə yataqların məhsuldarlığını saxlamaq üçün müasir texnologiyaya ehtiyac var. Xəzər hövzəsi texniki cəhətdən ən maraqlı və strateji baxımdan vacib bölgələrdən biri olaraq qalır və bu amil dənizin zəngin neft zonası kimi əhəmiyyətini təsdiqləyir. Ona görə də, müasir texnoloji sıçrayışlar fonunda neft sənayesinin yeni innovasiyalara ehtiyacı artıb və hazırda yeni ideya və yanaşmalar da bu səmtə istiqamətlənib.




B.Hüseynov birgə texnoloji infrastrukturların yaradılması və müasir emal proseslərinin optimallaşdırılmasının bütün tərəflərə fayda gətirdiyini xatırladıb. Onun fikrincə, Xəzərin enerji resurslarının artması təkcə regionun deyil, həm də Avropalı tərəfdaşların enerji təhlükəsizliyini daha da möhkəmləndirir. Avropa, Asiya və Yaxın Şərq ərazisində və enerji, tranzit və ticarət yollarının kəsişməsində yerləşən Azərbaycan enerji və karbon resursları ilə deyil, həm də bərpaolunan potensialın idarə olunması və istifadəsi ilə də regionda texnoloji yeniliklərə imza atmaqdadır.

"Halliburton" şirkətinin Şərqi yarımkürə üzrə prezidenti Şannon Slokumun sözlərinə görə, enerji sektorunda asan hasil olunan neft dövrü artıq arxada qalıb və operatorlar xidmət şirkətləri ilə əməkdaşlıqda yeni yanaşmaya ehtiyac duyurlar. İndi vəziyyət dəyişdiyindən şirkətlər yeni yataqlara fərqli düşüncə tərzi ilə yanaşmalıdır. Bu, operatorlar və mühəndislik işinin formulunu da dəyişilməsini zəruri edir. Nəticədə birgə əməkdaşlıq modeli nəticəsində daha səmərəli komanda işi, yüksək göstəricilər və yeni texnologiyaların daha sürətli tətbiqi mümkündür.

## ABŞ-la birgə Xəzərdə yeni layihə

Xəzər dənizində modernləşdirmədə əsas rol oyanayan bp şirkəti innovasiyayönümlü istehsala keçid sayəsində "Azəri-Çıraq-Günişli" (AÇG) yataqlar blokunda əlavə olaraq 2 milyard bareldən çox neft hasil etməyi planlaşdırır. Şirkətin AÇG sahəsinin işlənməsi üzrə meneceri Əfqan Hüseynovun sözlərinə görə, AÇG-nin gələcək hasilat potensialını artırmaq üçün kompleks yenilənmə və yeni texnologiyaların tətbiqi davam etdirilir. Yatağın statik və dinamik modelləşdirilməsi daha da təkmilləşdirilib. 700-dən çox quyudan toplanmış məlumatlar və 16 min metrdən artıq DTS nəticələri mürəkkəb layların dəqiq xəritələndirilməsinə imkan verib. Bunun nəticəsində təqribən 300 min barel əlavə hasilat potensialı yaranıb və potensial daha da artmaqdadır.

Azərbaycanın Xəzərdə ən modern emal texnologiyalarını tətbiq etməsində yaxın tərəfdaşlarından biri ABŞ-dır. SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

## SOCAR sənayedə süni intellekt modelini yaradır

Neft və enerji sektorunda müasir texnoloji yanaşmalardan biri istehsal-emal proseslərində süni zəka texnologiyalarının tətbiqidir. Hazırda ölkəmizdə süni intellekt tipli innovasiyaların sənaye, energetika sektorunda tətbiqi genişlənir və SOCAR süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələrin icrasını həyata keçirir. Bu istiqamətdə xarici tərəfdaşlarla qurulmuş əməkdaşlıq da xüsusi əhəmiyyət daşıyır. Ötən il SOCAR və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Esyasoft Holding" və "Presight AI" şirkətlərinin birgə müəssisəsi olan "IntelliGrid" arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Azərbaycanda Ağıllı Qaz Şəbəkəsinin İdarəetmə Sisteminin yaradılması nəzərdə tutulur. Dəyəri 480 milyon dollar olan bu layihə Azərbaycanın enerji infrastrukturunun modernləşdirilməsinə, qaz idarəetməsində effektivliyə nail olunmasına və karbon emissiyalarının azaldılmasına imkan yaradacaq. İntellektual sistemlər süni intellektin gücü ilə qaz istehlakının optimallaşdırılması, itkilərin azaldılması və real vaxt rejimində idarəetmə ilə əməliyyatların səmərəliliyini artıracaq.

Həmçinin, SOCAR ilə Özbəkistanın "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında neft-qaz sənayesində süni intellektin tətbiq olunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair anlaşma memorandumu imzalanıb ki, sənəd rəqəmsal transformasiya sahəsində konsultasiya xidmətlərinin göstərilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində tərəflər əməliyyat qruplarının işini dəstəkləyən böyük dil modelini (Large Language Model - LLM), həmçinin geoloji və enerji məlumatlarının təhlilinin avtomatlaşdırılmasına yönələn "Seismic AI" (seysmik süni intellekt) və ENOM həllərinin hazırlanmasını planlaşdırır.

SOCAR-la "Arthur D. Little" şirkəti arasında sənayedə süni intellekt texnologiyalarının tətbiqi, bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı yeni layihənin icrası nəzərdə tutulur ki, bu da enerji sənayesində innovativ idarəetmə modellərinin tətbiqini təmin etməklə, əməliyyatların optimallaşdırılması və rəqabət qabiliyyətinin artırılmasına səbəb olacaq.

"SPE Xəzər Texniki Konfransı" dünya sənaye liderləri və texniki ekspertlər sahə üzrə səriştələrini bölüşmək, eləcə də bu sahədəki unikal çağırış və imkanları nəzərdən keçirmək üçün mühüm platforma olmaqla, Xəzər regionunun dünya energetikasının gələcək dinamikalarının formalaşmasında mühüm rolunu daha da artıracaq.

*E.CƏFƏRLİ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**

# 44 gün Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdı



# Qələbəmiz dünya miqyasında da böyük əhəmiyyətə malikdir

Bu ay - noyabrın 8-də zəfərimizin 5-ci ildönümünü qeyd etdik. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində ordumuz, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad edib. 2023-cü ilin sentyabrında isə bir günlük antiterror tədbirlər nəticəsində Qarabağın digər əraziləri də tam azad edilib. Nəticədə Azərbaycan öz suverenliyini bərpa edib.

Azərbaycan Ordusunun qazandığı bu möhtəşəm qələbə dünya, regional və ölkə miqyasında böyük əhəmiyyətə malikdir. Ötən müddət ərzində qələbənin dünya miqyasında da nə dərəcədə böyük təsir və gücə malik olduğu sübut edilib.

**Dünyaya ədalətin hələ ölmədiyi mesajını verdik**

Mövzuya dair fikirlərini “Yeni Azərbaycan”la bölüşən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elman Məmmədov bildirib ki, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızda Ermənistan qeyri-qanuni məskunlaşma, mədəni irsimizə qarşı vandallıq və ekoloji terror həyata keçirmişdi: “Uzun illər beynəlxalq təşkilatların qətnamələr qəbul etməsinə baxmayaraq, Ermənistan status-kvonu dəyişməmək siyasəti yürüdürdü. 2020-ci ilin payızında Ermənistanın təxribatları, hərbi-siyasi avantüraları Azərbaycanı məcbur etdi ki, öz suveren hüquqlarını güc yolu ilə bərpa etsin.

Azərbaycan bu qələbə ilə təkcə regional deyil, beynəlxalq səviyyədə də sülhü dəstəkləyən ölkə olduğunu, haqqın, ədalətin bərpasının mümkünlüyünü ortaya qoydu: “Bununla ölkəmiz dünyaya ədalətin hələ ölmədiyi mesajını verdi. 44 günlük müharibə nəticəsində ölkəmiz Cənubi Qafqazda yeni geosiyasi reallıq, düzən yaratdı. Nəticədə Cənubi Qafqazda əmin-amanlıq bərqərar oldu. İndi Ermənistanla Azərbaycan arasında əlaqələr inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan bu sahəyə hər zaman töhfə verib və verəcək. Hansı ki, onun da əsasında sülh, inkişaf, birlik dayanır”.

**Azərbaycan xəbərdarlıqlar etmişdi...**

Deputat qeyd edib ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən əvvəl bir neçə dəfə Ermənistana mesajlar göndərib, xəbərdarlıqlar edib: “Bunlardan ən önəmlisi 2016-cı ilin aprelində olub. Azərbaycan güclü orduya malik olduğunu və işğala son qoyma gücündə olduğunu Ermənistana bildirib. Lakin Ermənistan bu çağırışlara məhəl qoymayaraq, 2018-ci ildə Naxçıvan istiqamətindəki təxribatı davam etdirmişdi.

2020-ci ilin iyul ayında Tovuzda baş verən qanlı hadisələr və 2020-ci ilin avqust ayında baş verən diversiya əməliyyatları ilə Ermənistanın təxribatları davam edib. Nəhayət, 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Ordusu əks hücuma keçib və 44 günlük müharibə başlayıb.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri işğaldan azad edildikdən sonra, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanla müzakirələrə başlayaraq, erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edib. Ermənistan bu tələbə əməl edərək, Ağdam, Kəlbəcər və Laçın bölgələrini Azərbaycana təhvil verib. Bu əməliyyatlar bir itkiyə yol vermədən həyata keçirilib”.

**Regionda sabitlik və əməkdaşlıq üçün yeni üfüqlər**

Deputatın sözlərinə görə, bu gün Azərbaycanın tarixi, mədəni və dini abidələri, təbiəti və ekologiyası üzərində törədilən cinayətlərə qarşı mübarizə davam edir: “Ermənistanın 2-ci Qarabağ müharibəsindən sonra törətdiyi minalama əməliyyatları və digər cinayətlərdən sonra, Azərbaycan bu torpaqları minalardan təmizləyir və infrastrukturunu bərpa edir. Bu gün Azərbaycan xalqı və dövləti, erməni işğalına son qoyaraq, öz ərazilərində tam suverenliyini bərpa edib və regionda yeni reallıqlar formalaşdırır. Prezident İlham Əliyevin qətiyyətli əmri ilə başlayan əks-hücum əməliyyatları müasir hərb tarixində misilsiz nümunə kimi göstərilir.

Azərbaycan Cənubi Qafqaz regionunu sülhə, əməkdaşlığa yönəldərək, infrastrukturun bərpası, beynəlxalq əlaqələrin inkişafı üçün bütün səyləri göstərir. Bu müharibə Azərbaycan xalqının qələbəsi, həmçinin regionda sabitlik və əməkdaşlıq üçün yeni üfüqlər açır”.

***Sahib***

# “Avrasiya Nəqliyyat Marşrutu”

## Çin-Mərkəzi Asiya-Xəzər-Avropa vahid nəqliyyat ailəsi formalaşır

**Bakıda “Avrasiya Nəqliyyat Marşrutu”nun Beynəlxalq Assosiasiyasının təsisçilərinin Ümumi Yığıncağının iclası keçirilib. Tədbirdə assosiasiyaya üzv olan dövlətlərin - Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistanın dəmiryol administrasiyalarının rəhbər heyəti iştirak edib. İştirakçı ölkələr Orta Dəhlizin cənub qolu hesab edilən Avrasiya Nəqliyyat Marşrutunda aparılan yenidənqurma və infrastruktur təchizatını, tranzit daşımaları üzrə tarif siyasətini, xərclərin optimallaşdırılması və vahid əlaqələndirmə imkanlarını müzakirə edib. “Avrasiya Nəqliyyat Marşrutu” Xəzərin Şərq tərəfində Orta Dəhlizin daha bir qolu hesab edilir və Çin, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçərək dəmir, avtomobil və dəniz yollarını və yol infrastrukturu komponentlərini əhatə edir.**

### Bakı Beynəlxalq Limanı - “Trans-Xəzər” nəqliyyat zənciri...

Tərəflər Orta Dəhlizlə daşınan yükləri artırmaq üçün ilk növbədə, infrastrukturu daha da inkişaf etdirməyi vacib hesab edir. Bu plana uyğun olaraq, son aylarda dəhlizin digər istiqamətlərində də əsaslı yenidənqurma işləri aparılıb, Mərkəzi Asiya bölgəsində dəmir yolu və liman infrastrukturları müasirləşdirilib, digər nəqliyyat xətləri ilə birləşdirilib. Qazaxıstan “Trans-Xəzər”də zəruri nəqliyyat infrastrukturlarını yeniləşdirib. Məngistay vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmirini başa çatdırıb. Bu nəqliyyat qovşağı Kurık dəniz limanını Orta Dəhlizə birləşdirməklə Qazaxıstanın beynəlxalq nəqliyyat marşrutlarında imkanlarını artırmağa xidmət edir. Belə ki, Kurık-Jetıbay yolu ən rentabelli və axıcı nəqliyyat xətti kimi beynəlxalq yük və daşınmaların birbaşa Kurık limanına yönləndirilməsində qısa və nəqliyyat sərfəliliyi baxımından ən rahat infrastruktur şəbəkəsi hesab edilir. Əgər əvvəllər sürücülər Aktauda dayanmalı olurdusa, indi onlar Jetıbay kəndi vasitəsilə dəniz limanına daha tez və rahat çatacaqlar.

Kurik limanı Azərbaycanın Qazaxıstan və dünya ilə liman bağlantısında da mühüm rol oynayır. Bakı Beynəlxalq Dəniz Limanı ilə Kurık Limanı arasında memorandum imzalanıb və yeni nəqliyyat zənciri formalaşıb. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına, oradan isə Gürcüstan, Türkiyə və Avropa ölkələrinə göndərilir. Son 2 ildə Ələt-Kurık-Ələt istiqamətində yükdaşımaların intensivləşməsi də bunu təsdiqləyir.



### Çindən yeni multimodal daşınmalara başlanılıb

Ancaq buna baxmayaraq, Orta Dəhlizlə daşınmaların həcminin sürətlə artması yeni çağırışlar meydana çıxarıb. ADY sədri Rövşən Rüstəmov bildirib ki, Çindən Avropaya və əks istiqamətə yükdaşımalarda artımın müşahidə edildiyi bir vaxtda marşrutların şaxələndirilməsinə ehtiyaclar daha da artıb. Noyabrdan etibarən, Çinin Qaşqar şəhərindən Azərbaycana Qırğızıstan, Özbəkistan və Türkmənistandan keçməklə multimodal daşınmalara başlanılıb. Habelə yaxın vaxtlarda inşası tamamlanacaq Özbəkistan-Qırğızıstan-Çin dəmir yolu Avrasiya Nəqliyyat Marşrutunun rolunu artıracaq və bu nəqliyyat xətti Orta Dəhlizlə Trans-Əfqan dəhlizi arasında əlaqəni təmin edəcək. Bu isə assosiasiyanın üzərinə bir sıra mühüm vəzifələr qoyur, infrastrukturun inkişafı, kommersiya, rəqəmsallaşma, marketinq, kommunikasiya və digər məsələlər üzrə koordinasiyaedici fəaliyyətini artırmağı labüdləşdirir. Bu konteksdə assosiasiya bir sıra tədbirlər həyata keçirilməli, o cümlədən “Avrasiya Nəqliyyat Marşrutu” üzrə intermodal daşımalarda mövcud vəziyyəti və daşımaların idarə olunması üçün İT həllər və rəqəmsal platformaları təhlil etməli, logistika, optimallaşdırma üzrə yeni prioritetlər müəyyənləşdirməlidir.

### “Trans-Əfqan” xətti Orta Dəhlizə birləşir...

Orta Dəhliz ailəsinin digər üzvü Özbəkistan da öz nəliyyat infrastrukturlarını yeniləyərək şaxələndirmədə fəal rol alır. Rəsmi Daşkənd son dövrlərdə dəmir yollarının inşası və modernləşdirilməsin istiqamətində əhəmiyyətli addımlar atıb, dəhlizə inteqrasiya edilmiş logistika mərkəzləri yaratmaqda davam edir, həmçinin daşınmalarda daha səmərəli rüsumların tətbiqi üçün hüquqi-normativ bazanı təkmilləşdirməkdədir. Bir müddət əvvəl Özbəkistan-Qırğızıstan-Çin yeni dəmir yolunun inşası razılaşdırılıb və bu layihənin icrası “Avrasiya Marşrutu”nu rolunun artırılmasına hesablanıb.

Eləcə də “Tacikistan Dəmir Yolları” nəqliyyatın səmərəli işləməsi üçün infrastrukturu inkişaf etdirmək, təkmilləşdirmək, optimal nəqliyyat marşrutları, kommunikasiyalar qurmaq yönündə tədbirlər həyata keçirməkdədir. Tacikistan hökuməti nəqliyyat dəhlizlərinin, dəmir yolu infrastrukturunun inkişafına və ölkənin tranzit zonaya çevrilməsinə böyük diqqət yetirir və bütün bu layihələri icra etməkdə Orta Dəhlizə inteqrasiyanı gücləndirmək məqsədi güdür.

Türkiyə Dövlət Dəmir Yolları da Orta Dəhlizdə yükdaşımaları artırmaq üçün öz səylərini gücləndirəcək. “TCDD Taşımacılık” şirkətinin baş direktoru Ufuk Yalçın bildirib ki, Türkiyənin coğrafi mövqeyinin verdiyi imkanlardan maksimum yararlanmaq və faydaları artırmaq üçün bütün tərəflərlə optimal əlaqələr qurulacaq.

Beləliklə, “Avrasiya Nəqliyyat Marşrutu” dəmir yolu xətlərini vahid bir coğrafi çərçivədə birləşdirməklə regionda yerləşən digər ölkələrin də dəhlizə qoşulmasını asanlaşdıracaq. Bu, həm də Əfqanıstan və Pakistan üçün də yeni imkanlar açır və hər iki ölkə Tacikistanla nəqliyyat sistemlərini əlaqələndirməklə, eləcə də “Trans-Əfqan” xəttini Orta Dəhlizlə birləşdirməklə Çinlə daha da yaxın bağlantı qurmuş olur.

### “Maneəsiz Rəqəmsal Dəhliz” asan keçidi təmin edəcək

Həllini gözləyən məsələlərdən biri də güzəştli gömrük və tarif siyasəti, vahid məlumat sistemi və rəqəmsal dövriyyələrin bir platformada birləşdirilməsidir. “Avrasiya Nəqliyyat Marşrutu” ailəsinin qənaətinə görə, vahid rəqəmsal platformanın olmaması daşınmalar zamanı sənədləşmə, məlumat mübadiləsi və yüklərin izlənilməsi, logistika xəritəsi, sürətli keçid və s. məsələləri ləngidir, ölkələr arasında koordinasiyanı çətinləşdirir. Ona görə də vahid platforma çərçivəsində bütün ölkələrin rəqəmsal sistemlərinin inteqrasiyası əsas prioritetlərdən biridir və layihədə iştirak edən ölkələrin hər biri rəqəmsallaşma ilə bağlı öz siyasətlərini birləşdirməyə çalışacaq. Bu strateji hədəfə əsasən, “Maneəsiz Rəqəmsal Dəhliz” qurulacaq. Bir müddət əvvəl həmin ekosistemin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridoru (Digital Trade Corridor) yaradılıb ki, Azərbaycan və Qazaxıstanın dəmir yollarının informasiya sistemləri gömrük modullu bu sistemə inteqrasiya olunub, Gürcüstan dəmir yollarının da sistemə qoşulması planlaşdırılır. Digər ölkələrin də növbəti ilə qədər bu rəqəmsal sistemə inteqrasiyasının başa çatdırılması və 2026-cı ildə “Maneəsiz Rəqəmsal Dəhliz” platformasının işə salınması nəzərdə tutulur. Bu isə dəhliz boyunca sənəd dövriyyəsini, gömrük rəsmiləşdirilməsi və yüklərin izlənməsi vahid ekosistemə birləşdiriləcək və Orta Dəhlizin rəqabət qabiliyyətini artıracaq.

***E.CƏFƏRLİ***

# Türkiyənin regional güc mərkəzi statusu təsdiqlənir...

## Cənubi Koreya Ankara ilə yaxın əməkdaşlıqda maraqlıdır

Geopolitik mənzərənin sürətlə dəyişdiyi dövrdə Türkiyənin regional aktordan qlobal güc mərkəzinə doğru yüksəlişi beynəlxalq münasibətlər sistemində xüsusilə nəzərə çarpmaqdadır. Rəsmi Ankara son illərdə siyasi, hərbi, iqtisadi və texnoloji sahələrdə həyata keçirdiyi ardıcıl strategiyalarla qlobal münasibətlər sistemindəki rolunu yenidən müəyyənləşdirib. Türkiyə həm siyasi qərarvermədə müstəqil xətt yürüdür, həm də özünün sərt güc elementlərini sürətlə modernizə etməklə geopolitik cazibəsini artırır. Xüsusilə müdafiə sənayesinin lokallaşdırılması və yerli-texnoloji sıçrayışlar, "Bayraktar" PUA-ları, hava hücumundan müdafiə sistemləri, taktiki zirehli platformalar, "Tayfun" raket layihəsi və nəhayət, milli döyüş təyyarəsi "Kaan" kimi proqramlar Türkiyənin artıq yalnız regional deyil, qlobal oyunçu kimi qəbul edilməsində əsas amillərə çevrilib. Eyni zamanda, Ankara diplomatik çevikliyi ilə də seçilir. NATO-nun aparıcı üzvlərindən biri kimi Qərb strukturlarında yer alan Türkiyə, paralel şəkildə Orta Şərq, Cənubi Qafqaz, Mərkəzi Asiya, Şimali Afrika və Qara dəniz hövzəsində özünəməxsus siyasi əməkdaşlıq platformaları müəyyənləşdirir. Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, enerji layihələrinin şaxələndirilməsi, Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşdırılmasına töhfələr, Suriya və Liviya proseslərində aktiv iştirak Ankara üçün yeni strateji imkanlar yaradıb. Artıq Ankara yalnız regional balansın elementlərindən biri deyil, dəyişən dünya nizamının formalaşmasına təsir göstərən aparıcı aktor sayılır.

### Yeni əməkdaşlıq prioritetləri...



Bu fakt növbəti dəfə Cənubi Koreya Prezidenti Lee Jae Myungun Ankara sərfəri zamanı müşahidə olundu. Yeni inkişaf dövrünün aparıcı dövlətlərindən sayılan Cənubi Koreyanın Türkiyə ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirməsi Ankaranın yeni nizamdakı üstün rolunu dəqiqləşdirir. Yeri gəlmişkən, Prezident Rəcəb Tayyib Ərdoğan Cənubi koreyalı həmkarı ilə birgə keçirdiyi mətbuat konfransında bildirib ki, iki ölkə arasında nüvə elektrik stansiyasının qurulması ilə bağlı işlər davam edir. Vurğulanıb ki, Cənubi Koreya ilə Türkiyə arasında müdafiə sənayesində birgə səylərin potensialı müzakirə edilir. Xatırladaq ki, iki ölkə arasında diplomatik münasibətlər 1957-ci ildə qurulub. Münasibətlər 2012-ci ildə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Lee Jae Myungun səfəri çərçivəsində ticarət və turizm, enerji və müdafiə sənayesi, infrastruktur və nəqliyyat, elm və texnologiya, qarşılıqlı investisiyalar, süni intellekt, yarımkeçirici və batareya texnologiyaları, innovasiya və bərpa olunan enerji sahələrində əhəmiyyətli potensial müzakirə olunub. Prezident Ərdoğan bildirib ki, Asiya-Sakit okean regionunda ikinci ən böyük ticarət tərəfdaşı olan Cənubi Koreya ilə müəyyən edilmiş 15 milyard dollarlıq ticarət həcminə çox yaxınıq. "Birgə səylər nəticəsində artıq 10 milyard dollarlıq həddi keçmişik. Daha balanslı ticarət münasibətləri üçün Azad Ticarət Sazişimizin yenidən nəzərdən keçirilməsinin vacibliyini də vurğuladım", -deyə Ərdoğan deyib. İki ölkə arasında müdafiə sənayesi müstəvisində həyata keçirilən Altay Tank layihəsi ən uğurlu nümunələrdən sayılır.

### Avropa, Yaxın Şərq, Avrasiya və Afrikanı birləşdirən unikal strateji mövqe

Vurğulanmalıdır ki, Cənubi Koreya da Türkiyəni regionun ən mühüm dövlətlərindən biri hesab edir. Anadolu Agentliyinin (AA) suallarını yazılı şəkildə cavablandıran Prezident Lee Jae Myung ölkəsinin Türkiyə ilə strateji tərəfdaşlığını prioritet saydığını və əlaqələrin daha da gücləndirməkdə davam edəcəklərini bildirib. Koreya Prezidenti bildirib ki, Türkiyə Koreya üçün strateji tərəfdaşdır və Avrasiya bölgəsində əhəmiyyətli bir mərkəzdir. Koreya müharibəsində türk və koreyalı əsgərlərin çiyin-çiyinə vuruşduğunu bildirən Lee Jae Myung iki ölkəni "qan bağlı qardaşlar" olaraq xarakterizə edib. Lee Jae Myung Türkiyənin Avropa, Yaxın Şərq, Avrasiya və Afrikanı birləşdirən unikal strateji mövqeyə malik olduğunu ifadə edib: "Müdafiə sənayesində ikitərəfli əməkdaşlıq olduqca canlıdır və bu əməkdaşlıq birgə istehsal, texnoloji əməkdaşlıq və kadr hazırlığı mübadiləsini əhatə edən bir sıra layihələri əhatə edir. Güclü müdafiə tərəfdaşlığımızın tipik nümunəsi Altay Əsas Döyüş Tankı istehsal proqramıdır. İndiyə qədər topladığımız təcrübəyə əsaslanaraq, əməkdaşlığımızın əhatə dairəsini nüvə enerjisi, biosəhiyyə, rəqəmsal transformasiya, yeni və bərpa olunan enerji və süni intellekt kimi gələcəyə yönəlmiş sənaye sahələrini əhatə etmək üçün genişləndirməyi hədəfləyirik", - deyə Cənubi Koreya Prezidenti bildirib.

Nüvə enerjisi sektorunda Koreya şirkətlərinin Türkiyənin Sinop Nüvə Elektrik Stansiyası layihəsində iştirakı ilə bağlı müzakirələrin davam etdiyini bildirən Prezident Koreyanın Türkiyənin nüvə enerjisinin inkişafına əhəmiyyətli töhfələr verəcəyinə əminliyini ifadə edib: "İnanıram ki, yeni nəsil müdafiə texnologiyaları ilə tərəfdaşlığımızı genişləndirə bilərik. Buna pilotsuz sistemləri ənənəvi platformalarla inteqrasiya etməklə, mobillik və müdafiə texnologiyalarını inkişaf etdirməklə və sektorlarımızın birgə innovasiya edə biləcəyi yeni sahələri araşdırmaqla nail ola bilərik. Prezident olaraq, mən Koreya və Türkiyə arasında təhlükəsizliyimizi gücləndirən, texnoloji imkanlarımızı inkişaf etdirən və iki ölkəmizdən kənarda sabitliyə töhfə verən gələcəyə yönəlmiş müdafiə tərəfdaşlığını dəstəkləməyə sadiqəm".

### Türkiyə güvənilir tərəfdaşdır...

Qeyd edək ki, səfər çərçivəsində Türkiyə və Cənubi Koreya arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat imzalanıb. 2027-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 70-ci ildönümü ərəfəsində, qarşılıqlı hörmət, etimad və uzunmüddətli dostluğa əsaslanan Strateji Tərəfdaşlığın daha da dərinləşdirmək üçün birgə iradə bir daha təsdiqlənib. Qeyd edək ki, Birgə Bəyanatda siyasi əməkdaşlıq proioritetləri açıqlanıb. Tərəflər bütün səviyyələrdə dialoq və məsləhətləşmələrin vacibliyini vurğulayaraq, müntəzəm siyasi əlaqələri və yüksək səviyyəli səfərləri davam etdirməyə hazır olduqlarını bildiriblər. Eləcə də Birləşmiş Millətlər Təşkilatı, G20 və başqa çoxtərəfli platformalarda birgə işləməyə hazır olduqlarını bir daha təsdiqləyiblər. Bəyanatda, həmçinin iqtisadi və sənaye əməkdaşlığının da istiqamətləri müəyyənləşdirilib. Tərəflər Türkiyə-Koreya Azad Ticarət Sazişi çərçivəsində əldə edilən irəliləyişlərdən məmnunluqlarını ifadə ediblər və ortaq rifaha və qarşılıqlı tamamlayıcı ticarət strukturuna töhfə verəcək bir razılaşmanın qorunmasının vacibliyini vurğulayıblar. Bundan başqa, elm, texnologiya və innovasiya, müdafiə sənayesi, mədəni, humanitar və cəmiyyətlərin inteqrasiyası sahəsində əməkdaşlıq prinsipləri vurğulanıb.

*SADİQ*

---

## Dünya 82 ildən sonra yeni "Tehran" axtarışında...

# "Tehran 43"-də qurulan və qırılan nizam: XXI əsrin sülh paradoksu

İkinci Dünya müharibəsinin qızğın çağında keçirilmiş Tehran Konfransı, tarixi adı ilə "Tehran 43" bəşəriyyətin taleyi üçün təkcə hərbi-strateji qərarların deyil, həm də gələcək dünyanın siyasi xəritəsinin müəyyənləşdiyi bir dönüş nöqtəsi oldu. Bu görüş və ya konfrans elə həmin günlərdə dalğa-dalğa yayılan müharibə sarsıntısına rəğmən, insanlığın sülh arzusunun hələ də yaşadığını sübut edirdi. 1943-cü il 28 noyabr - 1 dekabr tarixlərində antihitler koalisiyası liderlərinin - İosif Stalin (SSRİ), Franklin Ruzvelt (ABŞ) və Vinston Çörçillin (Böyük Britaniya) iştirakı ilə keçirilən, yeni dövrün "sərhədlərini" müəyyənləşdirən konfrans XX əsrin post-müharibə xəritəsini özündə əks etdirməklə yanaşı, 1980-ci illərin sonuna qədər davam edəcək "soyuq müharibə"nin də ilkin işartılarını özündə əks etdirirdi. İki fərqli ideoloji xəttə malik "zorən müttəfiqlərin" masa arxasında müzakirə etdikləri məsələlər yeni tarixin dönüş nöqtəsi idi...

### 82 il sonra bu gün: "müharibədən sülhə keçid" modeli XXI əsrin mürəkkəb reallıqları qarşısında işləmir...

Aradan 82 il keçib. Müharibə bitib, dünya sistemi dəyişib, imperiyalar süqut edib, yeni güc mərkəzləri meydana çıxıb, lakin sülh hələ də bəşəriyyət üçün tam mənada əlçatan olmayıb. Hətta müharibənin izlərini silmək üçün qurulan beynəlxalq institutlar belə zaman keçdikcə öz funksional gücünü itirib, qalıcı sabitlik yarada bilməyib. Bu günün reallığı daha mürəkkəb, daha parçalanmış və daha təhlükəlidir. Regional toqquşmalar nəinki səngimir, hətta daha da genişlənərək "lokal münaqişə" statusundan qlobal rəqabətin bir elementinə çevrilir. Böyük güclər arasındakı qarşıdurmalar 1940-cı illərin geosiyasəti ilə müqayisədə daha çox aktorun, daha çox marağın və daha çox qeyri-müəyyənliyin iştirak etdiyi çoxluqlu bir mühit yaradır. "Tehran 43"-ün yaratdığı "müharibədən sülhə keçid" modeli artıq XXI əsrin mürəkkəb reallıqları qarşısında işləmir.

Bugün dünyanın qarşısında duran mənzərə paradoksaldır: məntiqlə müharibənin dəhşətlərini görmüş bəşəriyyət sülhün dəyərini daha yaxşı anlamalı idi - amma sanki əksinə oldu. Qlobal güclər arasındakı inamsızlıq, iqtisadi maraqların sərtləşməsi, regional sistemlərin dağılması və yeni güclərin yaranması tarazlığı yenidən pozdu. Məhz buna görə "Tehran 43"-ün 82-ci ildönümündə dünyaya baxanda sülhün bizdən nə qədər uzaqlaşdığını daha aydın hiss edirik.

Böyük güclər bir vaxtlar ittifaq masasında çiyin-çiyinə qərarlar qəbul edirdilərsə, bu gün eyni güclər müxtəlif qütblərdə dayanaraq rəqabətin daha sərt formasını nümayiş etdirirlər. Bunun fonunda meydana yeni aktorlar çıxmaqdadır. Dünya yeni bir nizamın astanasındadır, lakin bu nizamın necə olacağı, hansı şəhərdə formalaşacağı hələ ki, zamanın öhdəsinə buraxılıb.



### Tehran-43: Birləşən güclər və ayrılan yollar...

Tehran Konfransının əsas ideyası qlobal miqyasda sülhün bərqərar olunması və beynəlxalq münasibətlərin sabit bir sistemə oturdulması idi. Dünyanı viran qoyan müharibənin içində belə üç böyük güc - ABŞ, Böyük Britaniya və SSRİ ortaq masa ətrafında əyləşərək həm qələbəni sürətləndirmək, həm də gələcək dünyanın siyasi arxitekturasını planlaşdırmaq istəyirdilər. "Tehran 43", eyni zamanda, liderlərin bir-birinə etibar etmə prosesi idi; qərarların mühüm hissəsi şəxsən Franklin Ruzvelt, Uinston Çörçill və İosif Stalinin siyasi iradəsi ilə formalaşmışdı.

Lakin qlobal sülhün konturları elə də uzunömürlü olmadı. Müharibə bitən kimi dünya dərhal yeni bir parçalanma xəttinə sürükləndi. "Tehran 43" masasında müttəfiq olan güclər cəmi bir neçə il sonra "soyuq müharibə" adlanan uzunmüddətli geosiyasi qarşıdurmanın tərəflərinə çevrildilər. Qonşuluqda sülhü bərpa etmək istəyənlər bu dəfə bir-birilərinin ideoloji rəqibi oldular. "Qırmızı qanad" SSRİ və sosialist blokunu, "göy qanad" isə ABŞ və müttəfiqlərini, kapitalist dünyasını formalaşdırdı. "Tehran 43"ün ideyası olan qlobal həmrəylik çox keçmədən kağız üzərində qaldı.

Əsrin sonunda SSRİ-nin süqutu ilə qlobal mühitin taleyi bir daha dəyişdi. Soyuq müharibənin bitməsi daha çox Qərbin liderliyi ilə formalaşmış birtərəfli nizam yaratdı, amma bu nizam da uzun sürmədi. Dünya daha da mürəkkəbləşdi, yeni regional güclər ortaya çıxmağa başladı, Asiya dövlətləri ard-arda qlobal sistemdə özlərini təsdiq etdilər. "Tehran 43"-ün qurduğu konfiqurasiya tamamilə dağıldı. Sülh üçün qurulan nizam münaqişələr üçün zəmin yaratdı. Bu gün bəşəriyyət bir daha eyni sualın qarşısındadır: dünya gücləri yenidən ortaq masa arxasında birləşə bilərmi?

### "Soyuq müharibə"dən isti qarşıdurmalara: Qlobal nizamın dağılması

Soyuq müharibənin sona çatmasından bu günə təxminən 40 ilə yaxın bir zaman keçib. Bu gün özünü SSRİ-nin varisi adlandıran Rusiya "Tehran 43"-də yanında oturduğu müttəfiqlərlə üz-üzə dayanıb. Qərbin Rusiya ilə münasibətləri ən gərgin mərhələyə qədəm qoyub: qarşıdurma tək siyasi deyil, hərbi, iqtisadi və texnoloji sahələrdə də özünü göstərir. Bu isə o deməkdir ki, "Tehran 43"-ün formalaşdırdığı sistem tam şəkildə iflasa uğrayıb.

Bu gün dünya o keçmiş ittifaqlardan çox uzaqdadır. Tehranda "müttəhimlər kürsüsü"ndə əyləşmiş Almaniya artıq Qərbin aparıcı güclərindən birinə çevrilib və təhlükəsizlik arxitekturasında əsas yükü daşıyan ölkələrdəndir. Avropa İttifaqı daha güclü siyasi aktora çevrilmə fonunda ABŞ-la münasibətlərdə müəyyən soyuqluq yaşayır. Bir sözlə, "Soyuq müharibə" bitdi, amma onun yerini "çoxqütblü qarşıdurmalar" aldı. "Tehran 43" bir dönəmin nizamını qurmuşdusa, XXI əsr həmin nizamın dağıldığını təsdiqlədi.

### Dəyişən dünya, dəyişən güclər: Yeni nizamın açarı haradadır?

Bu gün dünya siyasi ağırlıq mərkəzlərinin sürətlə yerini dəyişdiyi bir dövrü yaşayır. Artıq ənənəvi güclər təkbaşına qlobal prosesləri idarə edə bilmir. Regional güclər - xüsusilə Türkiyə kimi dövlətlər - həm diplomatik, həm iqtisadi, həm də hərbi sahədə yeni rol modelləri formalaşdırırlar. Fransa Prezidenti Emmanuel Makronun da etiraf etdiyi kimi, "Türkiyəsiz Avropada sülh mümkün deyil". Bu açıqlama, əslində, dünyanın hansı istiqamətə hərəkət etdiyini göstərir.

Qərb koalisiyası artıq təkqütblü dünyanı idarə edə bilmədiyini anlayır və Şərq dövlətləri ilə əməkdaşlığın qaçılmaz olduğunu qəbul edir. Enerji təhlükəsizliyi, regional sabitlik, logistik imkanlar, texnoloji rəqabət və yeni iqtisadi sistemlər kimi sahələrdə qərarların bölüşülməsi zərurətə çevrilib. Dünya artıq bir vaxtların "Tehran 43" xəritəsinə sığmır - aktorların sayı çoxalıb, güc paylanması dəyişib, reallıq daha dinamik olub.

Bu gün yeni beynəlxalq formatın harada formalaşacağı böyük sualdır. "Tehran 43" bir dönəmin simvolu idi, lakin yeni sülh modeli bəlkə də fərqli bir coğrafiyada - Bakıda, İstanbulda, Dohada və ya Pekində ortaya çıxa bilər. Çünki bu şəhərlər XXI əsrin yeni siyasi cizgilərini müəyyən edən əsas güc mərkəzlərinə çevrilir. Azərbaycanın təşəbbüsləri, Türkiyənin regional güc kimi yüksəlişi, Orta Dəhliz, enerji marşrutları, Qafqazın strateji əhəmiyyəti - bütün bunlar yeni qlobal nizamın məhz bu regiondan başlaya biləcəyinə işarə edir. Sülhün coğrafiyası da dəyişir, onun mərkəzi də...

### Dəyişməyən nəticə: Dünya yenidən masa arxasına qayıtmalıdır...

Bir zamanlar "Tehran-43" ümidi, ambisiyaları və bəşəriyyətin gələcəyini dəyişmək iddiası ilə tarixə düşmüşdü. Aradan 82 il keçsə də, o günün təsirləri hələ də hiss olunur. Amma dünya həmin nizamı çoxdan itirib. Soyuq müharibə dövrü biti, güc balansları dəyişib, ittifaqlar yenilənib və dünya daha mürəkkəb, daha çoxqütblü, daha təhlükəli bir mərhələyə qədəm qoyub.

Dünya həm də yeni sülhə möhtacdır. Bəşəriyyətin qarşısında tək bir sual dayanır: dünya yeni sülh masası arxasında birləşəcəkmi?... Yoxsa parçalanma yüzilliyi davam edəcək?

*P.İSMAYILOV*

# Ağ Ev yaxınlığında terror...

**ABŞ Prezidenti Donald Trampın miqrasiya siyasətini sərtləşdirmək istiqamətində atdığı addımlar fonunda ölkədə terror hadisələri baş verir. Noyabrın 26-da paytaxt Vaşinqtonda Ağ Ev yaxınlığında ABŞ Milli Qvardiyasının iki hərbçisinin güllələnməsi bunun göstəricisidir. "Atışma şəhərin 17-ci və 1-ci küçələrinin kəsişməsində baş verib", - deyə Vaşinqtonun Polis İdarəsi "X" sosial şəbəkəsində bildirib. Hadisəni törədən şəxs həbs olunub.**

## Tramp Əfqanıstan siyasətini daha da sərtləşdirə bilər




## Tramp hadisəni terror aktı hesab edir

Hadisənin baş veridyi zaman ABŞ Prezidenti Donald Tramp Florida ştatında Vest Palm-Biçdə olub. Donald Tramp hadisə ilə bağlı məlumatlandırılıb və o, "Truth Social"da paylaşım edib. Trampın sözlərinə görə, Milli Qvardiyanın iki hərbçisini güllələyən şəxs ağır yaralanıb: "Amma bunun bədəli çox yüksək olacaq. Allah böyük Milli Qvardiyamızı, bütün hərbçilərimizi, hüquq-mühafizə orqanlarımızı qorusun. Onlar həqiqətən əla insanlardır".

Daha sonra ABŞ Prezidenti "Şükranlıq" bayramını qeyd etmək üçün getdiyi Florida ştatındakı iqamətgahından videomüraciət yayaraq Ağ Evin yaxınlığında Milli Qvardiyanın iki üzvünün güllələnməsini terror aktı adlandırıb. "Bu gecə ən dəqiq məlumata əsaslanaraq bildirə bilərəm ki, Daxili Təhlükəsizlik Departamenti həbsdə olan şübhəlinin Əfqanıstandan ölkəmizə daxil olan əcnəbi olduğuna əmindir. O, 2021-ci ilin sentyabr ayında Bayden administrasiyası tərəfindən hamının danışdığı o biabırçı uçuşlarla gətirilib",- deyə Tramp bildirib. O, əvvəlki administrasiyanı bütün dünyadan 20 milyon naməlum və yoxlanılmamış əcnəbini ölkəyə buraxdığını bildirib. "İndi Bayden dövründə Əfqanıstandan ölkəmizə daxil olan hər bir əcnəbini yenidən yoxlamalıyıq və buraya aid olmayan hər hansı bir əcnəbinin ölkədən çıxarılmasını təmin etmək və ya ölkəmizə fayda vermək üçün bütün lazımi tədbirləri görməliyik. Əgər onlar ölkəmizi sevə bilmirlərsə, biz onları istəmirik",-deyə qeyd edib.

## Rəhmanulla Laqanval ABŞ kəşfiyyatına işləyib?

ABŞ Prezidenti Donald Tramp iki əsgərin güllələnməsindən sonra paytaxt Vaşinqtonda Milli Qvardiya əsgərlərinin sayını 500 nəfər artırmaq barədə tapşırıq verib. Bu barədə Pentaqon rəhbəri Pit Heqset açıqlayıb: "Bu hadisə yalnız Vaşinqtonu təhlükəsiz və gözəl etmək əzmimizi daha da artıracaq. Cinayətkarlığın azalması, təhlükəsizlik və mühafizənin artması tarixi bir addımdır. Lakin cinayətkarlar bu kimi zorakılıqlar etmək istəyirlərsə, biz heç vaxt geri çəkilməyəcəyik".

Qeyd edək ki, Vaşinqtonun mərkəzində ABŞ Milli Qvardiyasının hərbi qulluqçularına atəş açan şəxsin Əfqanıstan vətəndaşı olduğu təsdiqlənib. Terrorçunun adı Rəhmanulla Laqanvaldır. O, ABŞ-yə 2021-ci ildə gedib. Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Retkliff "Fox News"a müsahibəsində bildirib ki, həmin şəxs əvvəllər Əfqanıstanda ABŞ-ın müxtəlif hökumət strukturlarına, o cümlədən kəşfiyyata işləyib. KİV-in məlumatına görə, atəş açan əfqanıstanlı 2024-cü ildə sığınacaq üçün müraciət edib və onun ərizəsi 2025-ci ilin aprelində təsdiqlənib. Daha əvvəl isə ABŞ Məxfi Xidmətin rəsmi nümayəndəsi Entoni Qulyelminin bildirdimişdi ki, qurum atışmanın birbaşa Ağ Evə yönəldiyinə dair heç bir əlamət görmür.

## Əfqanıstan vətəndaşlarının immiqrasiya müraciətləri dayandırılıb

ABŞ-ın hakimiyyət orqanları Vaşinqtonun mərkəzində Milli Qvardiyanın əsgərlərinə hücumdan sonra Əfqanıstan vətəndaşlarının bütün immiqrasiya müraciətlərini dayandırıb. Birləşmiş Ştatların Vətəndaşlıq və İmmiqrasiya Xidmətinin məlumatına görə, müraciətlərə baxılması "qeyri-müəyyən müddətədək" təxirə salınıb. Bu arada ABŞ Nümayəndələr Palatasının üzvü, konqresmen Brandon Gill paytaxtda baş verən silahlı insidentdən sonra Əfqanıstan vətəndaşlarının kütləvi deportasiyasına çağırıb.

Ümumiyyətlə, sözügedən terror hadisəsi Tramp administrasiyasının Əfqanıstan siyasəti ilə də bağlı ola bilər. Məlumdur ki, Donald Tramp bu ölkəyə qarşı müəyyən qədər sərt mövqedədir. Sentyabrda ABŞ lideri Birləşmiş Krallığa səfəri zamanı keçirdiyi mətbuat konfransında ABŞ-ın Baqram aviabazasını qaytarmaq və Əfqanıstanda mövcudluğunu bərpa etmək niyyətini açıqlamışdı. "Əgər Əfqanıstan Baqram aviabazasını onu tikənlərə, yəni Amerika Birləşmiş Ştatlarına qaytarmasa, pis şeylər baş verəcək",-deyə Tramp Taliban hakimiyyətini hədələmişdi.




## ABŞ Taliban hökumətini tanımır

Qeyd edək ki, ABŞ hələ də Taliban hökumətini tanımır. Dünyanın bir sıra ölkələri bu hökumətlə müəyyən əməkdaşlıq etsə də, rəsmi olaraq tanımırlar. Böyük ehtimalla ABŞ-ın məlum mövqeyi beynəlxalq aləmdə bu istiqamətdə prosesi ləngidir. Hətta Rusiyanın Taliban hökumətini tanımasına verilən sərt reaksiya rəsmi Vaşinqtonun qəti mövqeyinin göstəricisi ola bilər. Xatırladaq ki, Dövlət Departamenti Rusiyanın "Taliban"ı tanımasını belə şərh etmişdi: "Rusiyanın bədniyyətli aktorlarla əlaqələrini davam etdirməyi üstün tutması təəccüblü deyil. ABŞ "Taliban"ı xüsusilə təhlükəli beynəlxalq terror qruplaşması kimi tanımağa davam edir. Bu, özü-özlüyündə hər şeyi deyir".

Onu da qeyd edək ki, ABŞ hərəkatın 1996-2001-ci illərdə qurduğu birinci hökuməti də tanımamışdı. O, taliblərlə Qətərdə razılaşma əldə etmək üçün danışıqlar aparsa da, bu, 2021-ci ilin avqustunda ABŞ-ın koalisiya üzrə müttəfiqləri ilə birlikdə Əfqanıstandan tam çıxarılması ilə nəticələndi. Hərəkat üzvləri hələ də BMT Təhlükəsizlik Şurasının terror təşkilatlarının sanksiya siyahısında qalır. Onların hakimiyyətə gəlişi ilə Əfqanıstan Mərkəzi Bankının 7 milyard dollar həcmində ehtiyatları ABŞ tərəfindən dondurulub.

Avropa İttifaqı (Aİ) da dəfələrlə vurğulayıb ki, hərəkatı qanuni hökumət kimi tanımır. Lakin bu yanaşmada da təzadlar var. Bəzi ölkələrin diplomatik missiyası Kabildə Əfqanıstanın diplomatik nümayəndələri ilə Avropa İttifaqı ərazisində fəaliyyət göstərir. Aİ 2021-ci ildən Əfqanıstana 903 milyon avrodan çox, o cümlədən 2024-cü ildə 125 milyon avro və 2025-ci ilin əvvəlində Ümumdünya Ərzaq Proqramı vasitəsilə 16,5 milyon avro həcmində əhəmiyyətli humanitar yardım göstərib.

Bütün bunların fonunda Vaşinqtonda baş verən terror hadisəsi Tramp administrasiyasının Əfqanıstana qarşı siyasətini daha da sərtləşdirə bilər. Əgər bu terrorun təşkilində həmin dövlətin iştirakı təsdiqlənərsə, o zaman Taliban hakimiyyətinin Vaşinqton tərəfindən cəzalandırılacağı istisna deyil.

*N.BAYRAMLI*

# Materiyanın çürük zənciri

## Saday Budaqlının "Fevral" povesti haqqında

**əvvəli ötən saylarımızda**

...Sonra bir gün keçdi, iki gün keçdi, bu günlər ötən günlərə oxşamayanda həmin uşaq da yoxa çıxdı; anasının yoxluğuna, atasının sərtliyinə, qaraqabaqlığına, evdəki qanqaraçılığa öyrəşən daha ayrısıydı, onunçün tanış həyətdən, tanış ağaclardan savayı məktəb varıydı, küçə varıydı, dostları, yoldaşları varıydı, çox vaxt heç evdən ötrü darıxmırdı da, çünki evdə hər dəqiqə qorxurdu ki, bu saat atası ona, ya qardaşlarına hirslənəcək, yenə qanqaraçılıq olacaq...

...Sonra atası evləndi, evlənib birdənbirə dəyişdi, mehribanlaşdı, pis bir iş tutanda da xətirlərinə dəymədi, elə bil nədəsə təqsirkardı, çalışırdı günahını yusun, özünü təmizə çıxarsın...

...Onun yaddaşında bir ayrı oğlan da varıydı. Bu oğlan üçün dünyada xurmayı saçlı, qara gözlü, tutaş kirpikli qızdan başqa heç kim yoxuydu, elə bil doğulmuşdu ki, gecə-gündüz o qızı düşünsün, özündən olmazın əhvalatlar quraşdırsın, o qızdan ötrü qəhrəmanlıqlar eləsin, yaralansın, ölsün; ölsün ki, qız onun üstündə ağlasın, xiffətini çəksin...

...Orduya çağırış vərəqi alan daha başqa adamıydı, müharibədən qayıdan da. Müharibədən tez-tez məktublar yazırdı, hamının bayramını, ad gününü vaxtlı-vaxtında təbrik eləyirdi, ancaq elə ki qayıdıb gəldi, bu vərdişlərini o saat yadırğadı...

...Müharibədən gələn kimi Düzyurdda açılmış ikiillik müəllimlər institutuna girdi, pis-yaxşı oxudu, diplom aldı, öz kefindən də qalmadı, subay oğlanıydı, ömrünün dörd ilini müharibə yelə vermişdi, gərək o günlərin əvəzini çıxaydı...

...Evlənib Vəli üçün tikilmiş evdə yaşayanda artıq başqa adamıydı. Həmin adam bir səhər hamilə qadının yanında gözünü açıb anlamışdı ki, onun bu günəşli, aylı, ulduzlu səmanın altında nəfəs ala bilməyi xoşbəxtlikdi və bu xoşbəxtlik üçün hamıya borcludu, hamı onun üçün nəsə edib, deməli, o da bu adamlar üçün nəsə etməlidi, necəsə, nə cürsə bu borcun əvəzini verməlidi...

...Həmin adam özündən sonra onun üçün bircə ağrı qoyub gedib - yəqin ağrısız yaşanan illərcə ağrıyla xatırlanır, yəqin ağrı həmişə olmalıdı: ya həmin günləri yaşayanda, ya da xatırlayanda. Bir də həmin adamı xatırlayanda həmişə heyifsilənir: axı o həmişə o cür ola bilərdi, dünyanı, adamları o cür görə bilərdi, qorxusuz-hürküsüz, xoşbəxtliyinin üstündə əsmədən, xoşbəxtliyini heç kimə qısqanmadan, heç nəyə qızırğalanmadan yaşaya bilərdi. Hər şey birdəncə dağıldı, yoxa çıxdı..."

Burada xatırlanan adamların heç biri indi sağ deyil, hamısı ölüb-itib, onun ahıl yaşına biri də salamat qalmayıb, biri də ömrünün bu tək, kimsəsiz çağında onun harayına yetməyib.

***

Budur, artıq yaş altmışı haqlayıb, bir dastanlıq ömürdən ona yalnız tənha qocalıq qalıb. Hərəsi bir evin çırağını yandırmış qızları hərdən gəlib onu yoluxurlar, ev-eşiyinə əl gəzdirir, pal-paltarını yuyurlar: "İndi acığı tutur qızlarının analarıyla görüşməyinə, süfrələrinin başında oturtmaqlarına, amma haçansa özü şərait yaradırdı. Bilirdi yolda-izdə görüşürlər, günü uzadılmış adıyla evdən çıxıb analarının yanına qaçırlar... Axırdan-axıra aranı da açdı, hərdən qızlarını söhbətə tutub, analarının necə yaşadığı ilə, nə danışdığı, nə soruşduğu ilə maraqlandı. Etinasız-etinasız suallar verirdi, guya eşitdiklərinin ona dəxli yoxdu, amma qulağı darı dəlirdi, analarının qanıqara olduğunu, nəyəsə deyindiyini, şikayətləndiyini eşidəndə çiçəyi çırtlayırdı. İlahi, hələ heç kimin ağlına gəlməz ki, o indiyə qədər nə edibsə, həmişə arvadını düşünüb, hər hərəkətini "o ləçərin" gözüylə ölçüb. Təkcə ona çalışıb ki, gördüyü iş arvadının xoşuna gəlsin, arvadı onu tanısın, təzədən tanısın, yaxşı adam kimi tanısın və günlərin bir günü o hiss eləsin ki, arvadı peşman olub..."

Onun həyatda özünü təsdiqləmə metodu həmişə başqalarının bədbəxtliyinə hesablanıb, onun xoşbəxtliyi özgələrin bədbəxtliyindən çıxıb - o bədbəxtliyə çarə qılmağı nə qədər arzulasa da. Başqa sözlə, onun törətmək istədiyi xeyir əməl şeytana möhtacdır, şərə bulaşıqdır, emosional, impulsiv xarakterlidir, mənəviyyat baxımından şübhəli mənbələrə dayanır, bu səbəbdən saf xeyir sayıla bilməz. Saf əməl olmadığından bu adamın ömrün ayrı-ayrı epizodlarında yaşadığı xoşbəxt anlar da sabit, dayanıqlı deyil, ötəridir, keçicidir, mənəvi əsasdan məhrumdur.

Qardaşının çağırdığı təcili yardım maşını qapıya dirənəndə onun durğun həyatı yenidən dalğalanır. Fikir fikiri qovduqca, fantaziyası sürətlə irəlilədikcə bu dalğa əvvəlcə selə, sonra sunamiyə çevrilir: "Qardaşı zorla, hıqqana-hıqqana danışırdı, sol böyründəki sancılardan şikayətlənirdi, deyirdi iki gündü ağrıdan qovrulur. Bu, qoca adamın səsi idi. O elə bil qardaşının qocaldığını indicə başa düşdü. Və narahatlıq hiss elədi. Bu narahatçılıqda adamı şirnikdirən, çəkən nəsə vardı..."

Küsülü olsalar da, qardaşını tək buraxmır, özü də həkim maşınına təpilir: "Qardaşını xəstəxanaya aparacaqlarını eşidəndə də elə həmin narahatçılığın boş yerə olmadığına inanmaq üçün geyinib tələsik maşına oturdu".

Ürəyinə damır ki, qardaşı öləcək - indi onun sönük qəlbini yalnız belə bir bədbəxtlik yerindən oynada bilər: "Görəsən indi nə düşünür qardaşı? Bu evləri, ağacları, hərdənbir buludların arxasından işaran günəşi son dəfə gördüyünü hiss eləyirmi? Gözləri yol çəkir, deyəsən onun maşında olduğunu da unudub..."

Müəllif bir-birinə düşmən kəsilmiş küsülü qardaşların əslində bir-birinə bir medalın iki üzü kimi çox yaxın, çox doğma, xaraktercə, mahiyyətcə eyni xassəli olduğunu sadə bədii dillə rahatca izah eləyir: "Qardaşı ona oxşayırmış. Özü də çox oxşayırmış. Ancaq qəribədi, tək sir-sifətdən oxşamırlar, talelərində də nəsə bir oxşarlıq var, elə xasiyyətlərində də. O da qardaşı kimi tərsdi. Ürəyi qövr eləyir, bir şirin söz dilini-dodağını yandırır, di gəl, gedib həmin sözü deyəmmir. Guya desə, alçalar, özünü sındırar. İndi qardaşının gözündə o tamam ayrı adamdı, ölüb gedəcək, heç vaxt da onun ürəyindəkilərdən xəbəri olmayacaq; xəbəri olmayacaq ki, həmişə, hətta qayıtmağından əlini üzəndə də ona güvənib, inanıb ki, çətinə düşsə, yenə qardaşı hayına yetər, xəstələnsə, yastığının dibini kəsdirər, ölsə, gəlib yerdən götürər..."

***

Labüd ölüm qarşısında qəhrəmanın şüur axını sürətlənir, yaddaşının tozlu qatları açılır. İndi onun öhdəsinə düşən ölümqabağı qardaşının qulluğunda durmaq, onun yastığının dibini kəsdirmək, "əkiztayının", antipodunun əzabından, ölümündən özünə həyat iksiri düzəltməkdir. Bir zamanlar ölümcül xəstəlikdən yatan atasının da üç ay əziyyətini çəkmişdi, kişini qucağında içəri-çölə daşımışdı, həmin üç aylıq cəfasının hesabına həyata yeni lisenziya almışdı, ömrünü illərlə uzatmışdı. İndi vaxtı keçmiş o lisenziyanı təzələmək zamanıydı: "Beşmərtəbəli xəstəxana binasının eyvanları boşuydu, qapı-pəncərələr bərk-bərk örtülmaşdü. Qardaşı da bu pəncərələrdən birinin arxasında oturub darıxacaqdı. Yuxarı mərtəbələrdə yatsa, meyidi düşürmək çətin olacaq..."

Xəstəxana həyətində həkim onu müjdələyir: qardaşının elə bir dərdi-azarı yoxdur, bir azca qara ciyəri şişib, beş-on gün yatıb çıxar: "Demək, heç nə dəyişməyəcək. O yenə evdə barmağının ucunda gəzəcək, qardaşıyla rastlaşmamaq üçün dəhlizə çıxanda öskürəcək, nəlbəkini əlində əsdirə-əsdirə çayı yenə öz otağına aparacaq. Demək, heç nə dəyişməyəcək".

***P.S. Noyabrın 13-də Saday Budaqlının 70 yaşı tamam oldu. Bu münasibətlə görkəmli yazıçını təbrik edir, ona möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları diləyirik.***

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Zəfər siyasətinin möhtəşəm təntənəsi

**28 noyabr 2025-ci il Azərbaycan üçün həm Qarabağ Zəfərinin, həm də milli təhsil strategiyasının mühüm simvolu olaraq tarixə düşür. Belə ki, bu gün Qarabağ Universitetinin yaradılmasının iki ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış tarixi Sərəncamla əsası qoyulan Qarabağ Universiteti təkcə yeni dövrün müasir ali təhsil müəssisəsi kimi yox, həm də azad olunmuş Qarabağ torpaqlarında dövlətçilik ideyasının, qayıdışın və strateji inkişaf kursunun rəmzi kimi formalaşıb. Bu yubiley Qarabağ Zəfərindən sonra qurulan yeni geosiyasi reallıqların və dövlətin Böyük Qayıdış siyasətinin sarsılmazlığının möhtəşəm təntənəsidir. Qarabağ Universiteti - Azərbaycanın qüdrətinin elm müstəvisindəki dəmir yumruğudur. Cəmi iki il ərzində Qarabağ Universitetinin timsalında Azərbaycanın güclü siyasi iradəsi, Qarabağın bərpasında təhsilin prioritet mövqeyi və gələcəyə yönəlmiş inkişaf modeli öz praktiki təsdiqini tapıb. Dövlətimizin qarşıya qoyduğu məqsəd aydındır: Qarabağ yalnız bərpa olunmur, o, yüksək keyfiyyətli təhsil, elm, innovasiya və insan kapitalı mərkəzinə çevrilir. Universitetin qısa müddətdə əldə etdiyi nəticələr bu strategiyanın reallığa çevrildiyini göstərir. İnfrastrukturun müasir tələblərə uyğun şəkildə qurulması, beynəlxalq proqramlar və tərəfdaşlıqların formalaşdırılması, yeni fakültələrin yaradılması, akademik heyətin seçimi və tələbə qəbulunun təşkil edilməsi Qarabağda təhsilin sıfırdan yenidən qurulmasının bariz nümunəsidir. Bu gün Qarabağ Universitetində yüzlərlə tələbə təhsil alır, elmi araşdırmalar aparılır və region üçün yeni düşüncə tərzi formalaşdırılır. Qarabağ Universitetinin fəaliyyətə başlaması həm də 30 ildən çox davam edən həsrətin bitdiyini, doğma torpaqlara qayıdışın təkcə fiziki deyil, həm də intellektual və mədəni aspektdə möhkəmləndiyini göstərir. Universitetin hər addımında dövlətimizin milli maraqları, Prezident İlham Əliyevin Qarabağın inkişafı ilə bağlı müəyyən etdiyi strateji xətt və bu xəttin əsas dayağı olan təhsil siyasəti öz əksini tapır.**

## Dəmir iradənin məntiqi nəticəsi

Qarabağ Universitetinin Xankəndidə fəaliyyətə başlaması 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında həyata keçirilən birgünlük lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam təmin edildikdən sonra atılan ən strateji addımlardan biridir. Bu, işğalçı qüvvələrin illərlə dağıtdığı torpaqlara Azərbaycanın əbədi qayıdışının rəmzi və hüquqi təsdiqidir.

Universitetin Xankəndidə yerləşməsi, bu şəhərin Azərbaycanın ayrılmaz hissəsi olduğunu və bölgəyə tam nəzarətin güclü mənbəyini beynəlxalq ictimaiyyətə bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə həyata keçirilən bu layihə hərbi zəfərin ardınca gələn siyasi və iqtisadi inkişaf strategiyasının təhsil dayağını təmin edir.

Qarabağ Universitetinin uğurlu inkişaf yolu Azərbaycanın öz ərazilərindəki bütün proseslərə nəzarət etdiyini, hər hansı bir xarici müdaxiləyə və ya təzyiqə boyun əyməyəcəyini göstərən dönməzliyin manifestidir. Bu təhsil ocağı, regionda sülhün və inkişafın təminatçısı kimi çıxış edən Azərbaycan dövlətinin strateji mövqeyini daha da gücləndirir.

## Sülh və inkişafın təminatçısı

İki il ərzində görülən işlər Qarabağın gələcəyinə qoyulan sərmayənin yalnız başlanğıcıdır. Qarabağ Universiteti qarşıdakı illərdə də elm və təhsilin inkişafı, innovativ layihələrin təşviqi, qlobal akademik mühitə inteqrasiya və bölgənin intellektual mərkəzə çevrilməsi istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirəcək.

Bu gün Qarabağ Universiteti həm tarixi Zəfərin, həm də Qarabağın dirçəlişinin real simvollarından biridir. Bu ali təhsil ocağının iki illik fəaliyyəti sübut edir ki, Azərbaycan dövləti Qarabağın yenidən qurulmasını yalnız bərpa layihəsi kimi deyil, gələcək nəsillərin formalaşdırıldığı strateji milli missiya kimi həyata keçirir. Bu Universitetin hər bir tələbəsi və məzunu tarixi missiyanın iştirakçısı və Azərbaycanın siyasi qüdrətinin bir parçası olacaqdır!

## Gələcəyin kadr potensialının siyasi təminatı

Qarabağ Universitetinin fəaliyyəti regionun təhlükəsizliyi və iqtisadi müstəqilliyi üçün birbaşa əhəmiyyət kəsb edir. Universitetin iki illik fəaliyyəti dövründə atılan bütün addımlar ölkə rəhbərliyinin gəncləşən, güclənən və elmə əsaslanan Azərbaycan vizyonunun göstəricisidir. Qarabağda yetişən hər bir mütəxəssis, Azərbaycan dövlətçiliyinə sadiq, milli ideologiyanı daşıyan kadr olaraq bölgənin gələcək idarəetməsində iştirak edəcək. Universitetin yaratdığı intellektual mühit, gələcək nəsillərin regionun iqtisadi ehtiyaclarına cavab verən ixtisaslarda (kiber-təhlükəsizlik, innovativ mühəndislik, dayanıqlı enerji) yetişməsinə zəmanət verir.

Qarabağ Universitetinin rektoru Şahin Bayramovun da ifadə etdiyi kimi Qarabağ Universitetində tələbələrə təkcə elm öyrədilmir, həm də Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə edilmiş Zəfərin ruhu və vətənpərvərlik hissləri aşılanır. Çünki bu universitet Azərbaycanın işğaldan azad edilmiş torpaqlarda həyata keçirdiyi quruculuq siyasətinin əsas ideoloji və kadr bazasıdır.

*Günel Abbas,*
*Qarabağ Universitetinin əməkdaşı*
*Xankəndi şəhəri*

# İnsanlığın ehtiyacı olan duyğu!

## Mərhəmətlə yoğrulan cəmiyyətlər neqativlə yüklənmir...

Bəzən həyatımızın ən çətin anlarında, dərin boşluqda olduğumuz zamanlarda bizə ən çox lazım olan şeylərdən biri mərhəmətdir. Bu hiss zərif bir duyğu olsa da, digər tərəfdən əsl gücün, insanın öz daxilindəki əxlaqi dəyərlərin göstəricisidir. Mərhəmət hissi bu gün dünyada yaşanan bütün sosial və psixoloji ünsiyyət problemlərinin əsas həllidir. Bu duyğu yüksək olan insanların yaşadığı cəmiyyət ilk növbədə sevgisizlik problemini aradan qaldırır, insanlar ünsiyyətin ən ali formasınadək yüksəlirlər. Mərhəmətlə yoğrulan cəmiyyət kin, ədalətsizlik və neqativlə yüklənmir.

Dünya şöhrətli mütəfəkkirlərin, yazıçıların fikrincə, mərhəmət hissi ən ali insani hissdir. Empatiya hissi ilə yaxın məna daşıyan mərhəmət hissi başqasının ağrısını ürəyində hiss etmək mənasında da işlənir. Bəzən mərhəmət hissini empatiya, rəğbət, şəfqət, bağışlama, fədakarlıq kimi hisslərlə eyniləşdirirlər. Lakin mərhəmət hissi qloballaşan dünyada hər gün bir az da yalnızlaşan insanlığın daha çox ehtiyacı olan duyğudur.

Yeri gəlmişkən, noyabrın 28-i Ümumdünya Mərhəmət Günü və ya Ümumdünya Şəfqət Günü kimi qeyd olunur. Bu günün bayram kimi qeyd olunmasının təşəbbüskarı - hind şairi, jurnalist və ictimai xadim Pritiş Nandi sayılır.

Günün keçirilməsində məqsəd hər hansı bir canlıya - insanlara, heyvanlara, bitkilərə zorakılıq etməməkdir. İlk dəfə Mərhəmət Günü 2012-ci ildə Hindistanın Mumbay şəhərində müxtəlif ölkələrin fəallarının iştirakı ilə keçirilib. O vaxtdan bəri Ümumdünya Mərhəmət Günü hər il keçirilir və bu gün mərhəmət prinsiplərinin tərəfdarları dünya əhalisini Sülhə, Sevgiyə və Qarşılıqlı Anlaşmaya çağırır.

## Fədakarlıq, mehribanlıq, sevgi....

Psixoloq Aytən Ələkbərova "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, mərhəmət hissinin insana və ətrafındakılara faydası tərəziyə qoyulmayacaq qədər dəyərlidir. Onun sözlərinə görə, mərhəmət vicdanı rahatladan, bizi insan olmaqdan uzaqlaşdırmayan və sağlam mənəviyyatlı edən vasitədir: "Yaşadığımız dilemmalardan, gördüyümüz çətinliklərdən, qarşılaşdığımız problemlərdən, çiynimizdəki yüklərdən ancaq mərhəmətlə xilas ola bilərik. Mərhəmət hissini bir az da mehribanlıqla müqayisə edə bilərik. Mərhəmət xeyirxahlıqdır, mehribanlıqdır, sevgidir. Bu, şəxsi maraq və xeyir güdmədən başqa insanı başa düşmək istəyidir, bir növ fədakarlıqdır".



## Heyvanlara qarşı amansızlıq edən uşaqlar

Psixoloq qeyd edib ki, uşaqlara kiçik yaşlardan mərhəmət duyğusunu öyrətmək çox vacibdir, çünki mərhəmət hissini tanımadan böyüyən uşaqlar az deyil: "Bunu küçədəki canlılara zərər verən uşaqları gördükcə anlamaq olur. Uşaqlar bəzən heyvanlara qarşı amansız ola, onu daşla vura və qısnaya bilirlər. Bəzən itin qulaqlarını, quyruğunu kəsən, quşların qanadını qoparan uşaqları da görürük. Heyvana mərhəmət hissi olmayan insanın insanlara da mərhəməti olmayacaq".

## Virtual platformalar mərhəmət hissini itirir?

Psixoloqun fikrincə, insanların mərhəmət hissini itirməyinin əsas səbəblərindən biri virtual platformalardır: "Sosial şəbəkələr həyatımıza bu qədər parçimləndikdən sonra dələduzluq, aldatma, yalan da onlayn müstəviyə keçdi. İnsanların mərhəmətindən, inamından və etibarından sui-istifadə edən fırıldaqçıların sayı getdikcə artdı. Bəzi insanlar rəqəmsal dünyanı gəlir mənbəyinə çevirdilər. Yalan paylaşımlarla insanların mərhəmətindən istifadə edib pul tələb edən bu adamlar insan ləyaqətinin nə qədər alçala biləcəyini göstərdilər. Beləliklə, bəzən onların kölgəsində qalan, həqiqətən ehtiyaclı, xəstəsi olan insanlara inamımız zamanla yox oldu".

"Sosial şəbəkələr həyatımıza bu qədər parçimləndikdən sonra dələduzluq, aldatma, yalan da onlayn müstəviyə keçdi. İnsanların mərhəmətindən, inamından və etibarından sui-istifadə edən fırıldaqçıların sayı getdikcə artdı. Bəzi insanlar rəqəmsal dünyanı gəlir mənbəyinə çevirdilər. Yalan paylaşımlarla insanların mərhəmətindən istifadə edib pul tələb edən bu adamlar insan ləyaqətinin nə qədər alçala biləcəyini göstərdilər. Beləliklə, bəzən onların kölgəsində qalan, həqiqətən ehtiyaclı, xəstəsi olan insanlara inamımız zamanla yox oldu".

*Yeganə BAYRAMOVA*





# Bakcell və Visa tərəfdaşlığa başlayır

İnnovasiya lideri Bakcell rəqəmsal ödənişlər üzrə qlobal lider olan Visa ilə tərəfdaşlığa başlayır. Bu əməkdaşlıq çərçivəsində Bakcell abunəçilərinə xüsusi üstünlüklər, daha rahat rəqəmsal ödəniş imkanı və yeni innovativ həllər təqdim ediləcək.

Tərəfdaşlığın ilk addımı olaraq Bakcell və Visa abunəçilər üçün xüsusi kampaniyaya start verib. Kampaniya ərzində abunəçilər Bakcell tətbiqi üzərindən, Visa kartı ilə, Apple Pay və Google Pay vasitəsilə minimum 5 AZN balans artırdıqda bonus internet hədiyyəsi qazanacaqlar. Təqdim olunan bonus internet həcmi artırılan məbləğə uyğun olaraq, 5 AZN - 9.99 AZN - 1 GB; 10 AZN - 14.99 AZN - 2 GB; 15 AZN və yuxarı - 5 GB kimi formalaşır. Əldə edilən bonuslar bir həftə müddətində aktiv qalır.

Bakcell innovasiya və süni intellekt əsaslı həlləri ilə Azərbaycanın rəqəmsal gələcəyinə, dayanıqlı inkişafına töhfə verməyə davam edir.

Kampaniya haqqında ətraflı məlumatı linkə keçid edərək əldə etmək olar.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4997**
**Sifariş: 2404**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova